# VI BÖLMƏ
# BEYNƏLXALQ İQTİSADİ MÜNASİBƏTLƏR

**UOT 339.9**

***Fazil Həşim oğlu ABBASOV***
***i.e.n., professor,***

***Günay İBADOVA***
***Azərbaycan Kooperasiya Universiteti***

## DÜNYA ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNDƏ BEYNƏLXALQ AQROBİZNESİN ROLU

***Xülasə***

Qlobal səviyyədə ərzaq təhlükəsizliyinin təmin edilməsi dünyada kənd təsərrüfatı məhsulları istehsalının həcminin artırılmasından, ərzaq bazarına çıxış imkanlarının təmin edilməsindən, eləcə də əhalinin alıcılıq qabiliyyətinin yüksəldilməsindən bilavasitə asılıdır. Qlobal ərzaq təhlükəsizliyinin təmin edilməsi aqrobiznes fəaliyyətindən də bilavasitə asılıdır. Məqalədə adı çəkilən problemlərin tədqiqindən bəhs edilir.

**Tədqiqatın məqsədi** – dövlətin ərzaq təhlükəsizliyinin təmin edilməsinə beynəlxalq aqrobiznesin rolunun təsirini qiymətləndirməkdən ibarətdir.

**Tədqiqatın metodologiyası** – tədqiqat işində müqayisəli təhlil, məntiqi ümumiləşdirmə, sistemli yanaşma, analiz və sintez metodlarından istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – beynəlxalq aqrobiznes fəaliyyəti məhsulun istehsalından istehlakına qədərki bütün mərhələləri əhatə etdiyindən beynəlxalq təcrübə nəzərə alınmaqla bu sistemin ərzaq təhlükəsizliyinə təsirinin müəyyənləşdirilməsinə çalışılmışdır.

**Tədqiqatın nəticəsi** – nəticələr belə qənaətə gəlməyə əsas verir ki, beynəlxalq aqrobiznes fəaliyyəti ərzaq təhlükəsizliyinin təmin edilməsinə əhəmiyyətli dərəcədə təsir edir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – məqalədə aqrobiznesin prinsipləri, beynəlxalq təcrübə, ərzaq təhlükəsizliyi məsələləri araşdırılmışdır. Məqalənin elmi yeniliyini aqrobiznesin inkişaf prioritetlərinin müəyyənləşdirilməsi təşkil edir.

***Açar sözlər: dünya ərzaq təhlükəsizliyi, beynəlxalq aqrobiznes, ərzaq məhsullarına olan tələbatın ödənilməsi, marketinq, beynəlxalq iqtisadi münasibətlər sistemi.***

### *Giriş*

Məlum olduğu kimi, ərzaq təhlükəsizliyi bütün dövrlərdə öz aktuallığını qoruyub saxlamış, bu problemin həlli dünya miqyasında iqtisadi dairələrdə böyük rola malik olmuşdur. Dünya üzrə ərzaq təhlükəsizliyinin təmin edilməsinin aktuallığını şərtləndirən ən mühüm amillərdən biri ilk növbədə əhalinin sayının sürətlə artması fonunda kənd təsərrüfatı və ərzaq məhsullarına olan tələbatın ödənilməsilə bağlıdır. Nəzərə almaq lazımdır ki, hazırda dünya əhalisinin sayı 7 mlrd. nəfərə yaxındır və bu da əhalinin sayının artımına qarşı həmin əhalinin ərzaq məhsulları ilə təmin edilməsini aktuallığa çevirir. Problemin aktuallığını şərtləndirən məqamlardan biri də ondan ibarətdir ki, dünyada əhalinin sayı həndəsi silsilə ilə artdığı halda, ərzaq məhsullarının və kənd təsərrüfatı məhsullarının istehsalı ədədi silsilə ilə artmaqda davam edir. Ümumiyyətlə müasir dünyada ərzaq problemini şərtləndirən amillər kifayət qədər çoxsaylıdır. Bu amillərə ilk növbədə əhalinin sayının artımını, eləcə də dünyada baş verən iqlim dəyişikliklərini, kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalının təbii iqlim şəraitindən asılılığını və s. şamil etmək olar.

Hazırda dünya ölkələrinin inkişaf səviyyəsində əhəmiyyətli dərəcədə fərqlərin yaranması son nəticədə dünyada ərzaq təhlükəsizliyi probleminin həllində kifayət qədər diferensial yanaşmaların yaranmasına gətirib çıxarır. Belə ki, intensiv əsaslarla inkişaf etmiş kənd təsərrüfatına malik olan Qərb ölkələrində, o cümlədən Avropa regionunda ərzaq probleminin həlli nəinki təmin edilmiş, eyni zamanda həmin region artıq dünyanın müxtəlif ərazilərinə ərzaq məhsullarının ixracını həyata keçirir. Bundan əlavə kifayət qədər imkanlı əhali kateqoriyaları orqanik məhsulların istehlakına daha çox önəm verirlər. Lakin inkişaf etməkdə olan ölkələrdə isə ekstensiv kənd təsərrüfatı sistemi hakim mövqe tutur. Bundan əlavə intensiv əsaslarla məhsul istehsalının həyata keçirilməsi o qədər də əlçatan hesab olunmur. Bundan əlavə ərzaq məhsullarının idxalında isə geni dəyişdirilmiş məhsullar daha çox yüksək xüsusi çəkiyə malikdir. Bütün bunlar isə bütövlükdə nəinki ərzaq təhlükəsizliyi problemini, eləcə də ərzağın təhlükəsizliyi problemini aktuallığa çevirir.

**Ərzaq təhlükəsizliyinin qlobal aspektləri**

Məlum olduğu kimi ərzaq təhlükəsizliyi dedikdə, ərzaq məhsullarına olan tələbatın ödənilməsində yerli istehsalın xüsusi çəkisinin yüksəldilməsi və eləcə də əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində alıcılıq qabiliyyətinin yüksəldilməsi, yəni ərzaq bazarına əhalinin bütün səviyyələrinin əlçatan səviyyədə daxil olma imkanlarının genişləndirilməsi başa düşülür.

Ərzaq təhlükəsizliyinin mikro, makro və meqa aspektləri fərqləndirilir. Mikro səviyyədə ərzaq təhlükəsizliyi dedikdə, hər bir fərdin və ailənin ərzaq məhsullarına olan tələbatının ödənilməsi imkanları nəzərdə tutulur. Yəni daxili imkanlar hesabına ailənin ərzaq məhsullarına olan tələbatının ödənilməsi başa düşülür. Makro səviyyədə ərzaq təhlükəsizliyi isə ölkənin ərzaq məhsullarına olan tələbatının ödənilməsində yerli istehsalın xüsusi çəkisinin yüksəldilməsi və ölkənin idxaldan asılılığının minimuma endirilməsi nəzərdə tutulur. Meqa səviyyədə ərzaq təhlükəsizliyini isə bir sıra hallarda qlobal ərzaq təhlükəsizliyi kimi də şərtləndirirdilər. Meqa səviyyədə ərzaq təhükəsizliyi daha çox beynəlxalq miqyasda ərzaq təhlükəsizliyinin qorunub saxlanması, dünya əhalisinin ərzaq məhsulları bazarında bərabər hüquqlu inkişaf imkanlarının qorunub saxlanılması və ya əhalinin alıcılıq qabiliyyətinin ərzaq məhsulları əldə etməyə yetərli olması kimi qəbul edilir.

Ərzaq problemi müasir şəraitdə kifayət qədər çoxaspektli problem kimi xarakterizə olunmaqdadır. Doğrudur, bu problemin həllində kənd təsərrüfatının rolu əhəmiyyətli dərəcədə yüksəkdir. Lakin bununla belə, iqtisadiyyatın digər sahələrinin inkişafı, eləcə də dövlət büdcəsinin imkanları, investisiya cəlbediciliyinin səviyyəsi və s. ərzaq probleminin həllində əhəmiyyətli rol oynayan məqamlardan biri kimi çıxış edir. Ümumiyyətlə müasir şəraitdə qloballaşma prosesi dünya ölkələrinin inkişafına da kifayət qədər fərqli aspektdə təsir göstərməkdədir. Qloballaşma prosesinin keçid dövrünü yaşayan ölkələrin iqtisadiyyatına daha çox mənfi təsir göstərməsi artıq getdikcə daha çox həqiqətə çevrilməkdədir. Eyni zamanda qloballaşma prosesində inkişaf etmiş ölkələrin daha çox mənfəət götürəcəyi də şübhəsizdir. Belə ki, inkişaf etmiş sənaye ölkələri dünya bazarında ixracatçı, inkişaf etməkdə olan ölkələr isə idxalçı kimi çıxış etdiyindən qloballaşma prosesində birincilərin üstünlük qazanacağı təbii hal kimi qeyd edilməlidir. Təkcə bir faktı qeyd etmək lazımdır ki, hazırda dünyada 2200 mln. ton taxıl məhsulları istehsal olunur və dünyada taxıl ixracının 85%-i ABŞ, Kanada, Avstraliya və Avropa Birliyi ölkələrinin payına düşür. [2. s. 190]

Müxtəlif ictimai quruluş və iqtisadi sistemin tipindən asılı olaraq ayrı ayrı dövlətlərdə ərzaq probleminin özünəməxsus xarakteri mövcuddur. Bu baxımdan xüsusilə inkişaf etməkdə olan ölkələrdə ərzaq probleminin daha kəskin xarakter daşıması özünəməxsus səciyyə daşıyır və bütün bunlar onunla daha çox əlaqədardır ki, inkişaf etməkdə olan ölkələr kifayət qədər müstəmləkə keçmişinə malikdir. Bundan əlavə, inkişaf etməkdə olan ölkələrdə ərzaq probleminin özünü daha kəskin şəkildə büruzə verməsi həmin ölkələrin kənd təsərrüfatının daha çox əl əməyi əsasında qurulmasilə sıx əlaqədardır. Belə ki, Asiya, Afrika və Latın Amerikası kimi aqrar tipli ölkələrdə demək olar işçi qüvvənin təxminən yarıya qədəri kənd təsərrüfatında çalışır. Bu isə ona gətirib çıxarır ki, həmin ölkələrdə istehsal edilən kənd təsərrüfatı məhsulları ən azı kustar əsaslarla həyata keçirilir və eyni zamanda ərzaq məhsullarının özünütəminat səviyyəsi o qədər də yüksək deyildir.

**Müasir şəraitdə aqrobiznes və onun formalaşmasının xüsusiyyətləri.** Yuxarıda qeyd etdiyimiz kimi, transformasiya prosesini yenicə başa çatdırmış keçid iqtisadiyyatlı ölkələr kimi, xüsusilə postsovet respublikalarında aqrobiznes və onun aqrar sektorda yeri və rolu, eləcə də onun sərhədləri və strukturuyla bağlı kifayət qədər təkmil xarakter daşıyan praktik məqamlar, demək olar ki, azsaylı xarakter daşıyır. Bu aspektdən yanaşaraq qeyd etmək lazımdır ki, inkişaf etməkdə olan ölkələr üçün, o cümlədən keçid iqtisadiyyatını və transformasiya dövrünü yenicə başa çatdırmış ölkələr üçün aqrobiznes anlayışı kifayət qədər yeni iqtisadi kateqoriya hesab oluna bilər. Onu da nəzərə almaq lazımdır ki, bazar iqtisadiyyatı fonunda inkişaf etmiş Qərb ölkələrində artıq aqrobiznes fəaliyyəti kifayət qədər təkmil xarakter daşımaqdadır. Qərb ölkələrində aqrobiznes fəaliyyətinə əslində tam mənada sahibkarlıq fəaliyyətinin mühüm tərkib hissəsi kimi yanaşılır. Aqrobiznes, kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı və satışı prosesini özündə əks etdirən kompleks xarakter daşıyan sahibkarlıq fəaliyyəti kimi səciyyələnir. Aqrobiznesin formalaşdırılmasında başlıca məqsəd ilk növbədə iqtisadi prinsiplərə əsaslanır. Aqrobiznesin formalaşmasında başlıca məqsəd, əsas etibarilə kənd təsərrüfatı məhsullarına olan tələbin tam mənası ilə təmin edilməsinə istiqamətlənmiş tədbirlərin həyata keçirilməsi və bu zaman əldə edilən gəlirin səviyyəsinin artırılmasına nail olmaqdan ibarətdir. Aqrobiznes, məhz iqtisadi kateqoriya olaraq bilavasitə bazara istiqamətlənmiş fəaliyyəti nəzərdə tutur. Daha doğrusu, bazarın konyunkturuna uyğun olaraq məhsul istehsalının həyata keçirilməsini şərtləndirən bütün faktorların məcmusunu özündə ehtiva edən bir təsərrüfat sistemi kimi səciyyələnir.

Qeyd etmək lazımdır ki, aqrobiznes termini Qərb ölkələrində elmi ədəbiyyata ilk dəfə XX əsrin 50-ci illərinin ortalarından etibarən daxil olmuşdur. Aqrobiznes anlayışı ilk dəfə C.Deybirs və R.Qoldber tərəfindən iqtidadi ədəbiyyata daxil edilmişdir. Sonralar bu anlayış aqrar iqtisadiyyatda Leontiev tərəfindən daha da inkişaf etdirilmişdir ki, adı çəkilən şəxs Qərb ölkələrində iqtisadiyyat sahəsində Nobel mükafatına layiq görülmüşdür. Tarixi ədalət naminə onu da etiraf etmək lazımdır ki, kənd təsərrüfatı məhsullarının alqı-satqısı və ümumiyyətlə kənd təsərrüfatı sektorunun bazar proseslərinə inteqrasiyası ilə bağlı proseslər ilk dəfə 1927-ci ildə Çayanov tərəfindən geniş tədqiqata cəlb edilmişdir. Zaman keçdikcə aqrobizneslə bağlı anlayışlar daha da təkmilləşdirilmiş və bütövlükdə aqrobiznes anlayışı özünün məhdud miqyasından daha da kənarlaşaraq nisbətən daha geniş anlam kəsb etməyə başlamışdır. Belə ki, artıq Qərb iqtisadi ədəbiyyatlarında aqrobiznes dedikdə ilk növbədə kənd təsərrüfatı məhsullarının istehsalı bölgüsü, kənd təsərrüfatı istehsalçılarının maddi-texniki resurslarla təmin edilməsi və istehlakçılara çatdırılmasına qədərki bütün bazar əməliyyatlarının məcmusunu özündə əks etdirən bir sistem xarakterizə edilməkdədir. Müasir şəraitdə aqrobiznes sferasına aşağıdakılar şamil edilir:

- kənd təsərrüfatı məhsullarının istehsalı (bitkiçilik və heyvandarlıq məhsullarının istehsalı);
- kənd təsərrüfatı məhsullarının emalı (bitkiçilik və heyvandarlıq məhsullarının emalı);
- kənd təsərrüfatı məhsullarının saxlanılması;
- kənd təsərrüfatı məhsullarının ticarəti;
- istehsal sektorunda aqroservis xidmətinin təşkili, o cümlədən aqrokimyəvi nəqliyyat, ticarət, təchizat xidmətlərinin həyata keçirilməsi, eyni zamanda kənd təsərrüfatı əmtəə istehsalçılarının məsləhət-informasiya xidmətilə təmin edilməsi;
- sosial aqroservis xidmətinin həyata keçirilməsi (istehlak korporasiyası ilə bağlı fəaliyyətin genişləndirilməsi, kənd təsərrüfatı əmtəə istehsalçılarının bazara çıxış imkanlarının genişləndirilməsi istiqamətində, eyni zamanda bazarın bərabərhüquqlu tərəf kimi istifadə edilməsi sahəsində zəruri tədbirlərin həyata keçirilməsi.

Təkcə bir faktı qeyd etmək olar ki, bazar iqtisadiyyatına keçmiş dövlətlərin əksəriyyətində aqrobiznes fəaliyyəti, demək olar ki, milli iqtisadiyyatın inkişaf etmiş yarımsistemi kimi səciyyələnir. Belə ki, ötən əsrin 90-cı illərində ABŞ-da aqrobiznes sektorunda təkcə 20 mln nəfərə yaxın əhali məşğul olmuşdur ki, bu da bütövlükdə fəaliyyət göstərən əmək qabiliyyətli əhalinin 21%-ə qədərini təşkil edir. Onu da nəzərə almaq lazımdır ki, ABŞ-ın milli gəlirində aqrobiznes fəaliyyətindən əldə olunan gəlirin xüsusi çəkisi təxminən 20%-ə malikdir. Bundan əlavə, aqrobiznes sahəsində

məşğul olan işçilərin əmək məhsuldarlığı bütövlükdə ölkənin ümumi iqtisadiyyatı üçün xarakterik olan orta göstərici səviyyəsində hesab edilir [3, s. 118].

**Aqrobiznesin inkişafı sahəsində ABŞ təcrübəsi.** Konkret olaraq aqrobiznesin inkişafı sahəsində ABŞ təcrübəsinə müraciət edilməsinin zəruriliyini şərtləndirən ən mühüm amil onunla bağlıdır ki, aqrobiznes sahəsi ABŞ-da demək olar ki, digər ölkələrlə müqayisədə kifayət qədər güclü inkişaf səviyyəsinə malikdir. Və o da nəzərə alınmalıdır ki, bütövlükdəABŞ-da kənd təsərrüfatının inkişafı sahəsində daha çox üstünlüklər əldə edilmişdir. Aparılan araşdırmalar belə qənaətə gəlməyə əsas verir ki, istehlak edilən məhsulin istər çeşid səviyyəsi və istərsə də məhsulun keyfiyyəti baxımından ABŞ-da vəziyyət kifayət qədər prioritet xarakter daşıyır. Bu da daha çox onunla bağlıdır ki, ABŞ-ın kənd təsərrüfatı əmtəə istehsalçılarının təsərrüfat fəaliyyətindən əldə etdiyi gəlir bütövlükdə geniş təkrar istehsalı uğurla gerçəkləşdirməyə imkan verir. Bundan əlavə, ABŞ dövləti tərəfindən kənd təsərrüfatının zəruri şəraitdə subsidiyalaşdırılmasına istiqamətlənmiş tədbirlər kifayət qədər uğurlu həyata keçirilir və məhz bütün bunların nəticəsində ABŞ nəinki ölkənin ərzaq təhlükəsizliyini təmin edir və eyni zamanda dünya ərzaq bazarında ən mühüm məhsulların ixracçısı kimi çıxış edir və bu prosesdən əhəmiyyətli şəkildə gəlir əldə etmək imkanına malikdir.

XX əsrin sonlarından etibarən ABŞ-ın kənd təsərrüfatında əmək məhsuldarlığının səviyyəsi ölkə iqtisadiyyatında ümumi orta göstərici səviyyəsinə yüksəlməyə imkan vermişdir. ABŞ-da orta statistik fermer demək olar ki, 60 nəfərə qədər insanın minimum ərzaq məhsullarına olan tələbatının ödənilməsini təmin etmək iqtidarındadır. Bu isə ilk növbədə onunla bağlıdır ki, ABŞ-ın kənd təsərrüfatında istehsal prosesinin intensivləşdirilməsi kifayət qədər yüksək səviyyədədir və kənd təsərrüfatında əmək məhsuldarlığının səviyyəsi yüksəkdir. Konkret olaraq ABŞ-da adı çəkilən göstəricini postsovet respublikaları ilə müqayisə etsək belə qənaətə gəlmək olar ki, ABŞ postsovet ölkələrini bu sahədə təxminən 10 dəfəyə qədər qabaqlayır. [4, s. 3-5].

Onu da nəzərə almaq lazımdır ki, ABŞ-da kənd təsərrüfatının iqtisadi səmərəliliyi heç də ən önəmli xarakter daşımır. Belə ki, ötən əsrin 40-cı illərinin əvvəllərinə qədər kənd təsərrüfatında məhsuldarlığın səviyyəsi digər sahələrlə müqayisədə heç də yüksək olmamış, əksinə, digər sahələrdən nəzərəçarpacaq dərəcədə geri qalmışdır. Həmin dövrdə kənd təsərrüfatının inkişaf etdirilməsi üçün dövlət tərəfindən zəruri tədbirlərin həyata keçirilməsinə kəskin ehtiyac yaranmışdır. Məhz ABŞ-da Böyük Depressiya dövründən sonra kənd təsərrüfatının inkişaf etdirilməsi ilə bağlı davamlı olaraq fermer proqramları işlənib hazırlanmış və bu istiqamətdə zəruri dövlət dəstəyinin gerçəkləşdirilməsinə başlanmışdır. Həmin dövlət dəstəyi tədbirlərinə ilk növbədə kənd təsərrüfatı məhsullarının qiymətlərinin və istehsalçıların gəlirlərinin artırılmasına istiqamətlənmiş tədbirlərin həyata keçirilməsi, eləcə də əkin yerlərindən səmərəli istifadə edilməsi və intensiv əsaslarla məhsul istehsalının həyata keçirilməsinə başlanılması, kənd təsərrüfatında elmi tədqiqatların davam etdirilməsi, fermerlərə güzəştli kreditlərin verilməsi, məhsulların sığortalanması, gəlirlərlə və mülkiyyətlə bağlı vergilərin aşağı salınması ilə bağlı zəruri tədbirlər aid edilmişdir.

Adı çəkilən dövlət yardımı nəticəsində fermer təsərrüfatlarında maddi-texniki bazasının möhkəmləndirilməsinə nail olundu, eləcə də sahələrarası qiymət paritetinin əldə edilməsi təmin edildi. Bu arada aqrar sahənin istehsal, satış və emal sektorlarında mövcud olan dispraporsiyaların aradan qaldırılması, eləcə də infrastrukturun təkmilləşdirilməsi istiqamətində zəruri tədbirlər həyata keçirildi. Bunlar kənd təsərrüfatında əmtəəlik məhsul artımına əlverişli şərait yaratdı, kənd təsərrüfatında məhsulun çeşidinin və keyfiyyətinin yüksəldilməsinə təkan verdi. Tədqiqatlar göstərir ki, müxtəlif dövrlərdə kənd təsərrüfatında fəaliyyət göstərən əmtəə istehalçılarına 300 mindən 1,2 mln dollara və hətta 1,5-2 mln dollara qədər subsidiyaların verilməsi təmin edildi. Hazırda kənd təsərrüfatında fermer təsərrüfatlarının demək olar ki, 80% -ə qədəri dövlət tərəfindən dotasiya, subsidiya və subsensiya əldə edir ki, bu da bütövlükdə kənd təsərrüfatında əldə edilən mövcud gəlirlərin təxminən 1/3-ini təşkil edir [4. s. 3-5].

Kənd təsərrüfatına dövlət yardımlarının artırılması nəticəsində demək olar ki, kənd təsərrüfatında fəaliyyət göstərən əmtəə istehlaçıları il ərzində 1000$-dan aşağı olmamaqla təkcə əmtəəlik

məhsul əldə edirlər. Eyni zamanda ABŞ-da kənd təsərrüfatında fəaliyyət göstərən fermer təsərrüfatlarının sturukturu 5000$-dan aşağı olmamaq şərtilə qruplar formasında diferensiallaşmışdır. Bütün bunların nəticəsi idi ki, kənd təsərrüfatında 500 min $-dan yuxarı əmtəəlik məhsul istehsal edən fermerlərin sayı təxminən 800 mindən yüksək hesab olunurdu ki, bu da ümumi fermerlərin təxminən 35% -ə qədərini təşkil edir.

İllik 100 min $-a qədər əmtəəlik məhsul istehlak edən kənd təsərrüfatı əmtəə istehlakçıları bir qayda olaraq iri əmtəə istehlakçıları hesab edilirdi. Ümumiyyətlə, fermerlərin gəlirlərinin əsas hissəsi demək olar ki, kənd təsərrüfatlarında məhsul istehsalının həyata keçirilməsi ilə bağlı formalaşırdı [3, s. 4]. Hazırda ABŞ-da fermer təsərrüfatlarının ümumi sayı 2 mln-a qədər təşkil edir ki, həmin fermer təsərrüfatlarında kənd təsərrüfatlarına yararlı torpaqların orta həcmi 200 hektara bərabərdir. Bir fermer hesabı ilə reallaşdırılan məhsulların orta statistik pul gəliri isə təxminən 85-90 min $-a yaxındır. [4. s. 4].

**Aqrobiznesin təşkilinin əsas xüsusiyyətləri.** İnkişaf etmiş dünya ölkələrinin təcrübəsi göstərir ki, arqobiznesin təşkili bir qayda olaraq 3 əsas formada həyata keçirilir. Arqobiznesin təşkili bir qayda olaraq, qanunvericiliyə müvafiq olaraq həyata keçirilir və onların fəaliyyəti normativ-hüquqi aktlarla tənzimlənir. Qanunvericiliyə müvafiq olaraq aqrabiznes fəaliyyətində iştirak edən bütün sturukturların hüquqları bərabər şəkildə qorunur və onlar bərabərhüquqlu tərəfdaş hesab edilirlər. Biznesin təşkilinin əsas formalarına aşağıdakıları şamil etmək olar:

- vahid sahibkarlıq qaydasında həyata keçirilən aqrobiznes fəaliyyəti;
- bir qayda olaraq şəriklilik və qarşılıqlı əməkdaşlıq əsasında fəaliyyət göstərən aqrobiznes fəaliyyəti;
- korporotiv fəaliyyət yönündə təşkil edilən aqrobiznes fəaliyyəti.

Aparılan araşdırmalardan və eləcə də inkişaf etmiş dünya ölkələrinin təcrübəsindən belə qənaətə gəlmək olar ki, aqrobiznesin fəaliyyətinin yuxarıda adı çəkilən formalarının hər biri müxtəlif hüquqi, təşkilati və iqtisadi xarakteristikaya malikdir. Aqrobiznesin təşkilinin yuxarda adı çəkilən hər 3 formasının özünəməxsus hüquqi, təşkilati və iqtisadi xüsusiyyətləri mövcud olsa da, lakin bütün bunlara baxmayaraq adı çəkilən təşkilat formalarının hər biri, demək olar ki, eyni iqtisadi şərait daxilində fəaliyyət göstərir, yəni kənd təsərrüfatında fəaliyyət göstərən əmtəə istehsalçıları və digər qurumlar üçün fərqli iqtisadi və hüquqi şərait mövcud deyildir. Dövlət tərəfindən əsas məqsəd ərzaq təhlükəsizliyinin təmin edilməsi olduğundan aqrar sahənin inkişafına, demək olar ki, bərabər hüquqi-iqtisadi şərait yaradır. Mülkiyyət mənsubiyyətindən asılı olmayaraq bütün kənd təsərrüfatı əmtəə istehsalçıları üçün dövlətin yardımları bərabərtərəfli xarakter daşıyır. İnkişaf etmiş dünya ölkələrində, o cümlədən ABŞ-da kənd təsərrüfatında fəaliyyət göstərən əmtəə istehsalçılarının, o cümlədən fermer təsərrüfatlarının müflisləşməsinin qarşısının alınması istiqamətində zəruri tədbirlər həyata keçirilir. Daha doğrusu, fermer təsərrüfatları iflasdan qorunur və müflisləşmədən uzaq tutulur. Bu isə dövlət büdcəsindən kənd təsərrüfatından əmtəə istehsalçılarına ayrılan subsidiyalar, subvensiyalar və dotasiyalar yolu ilə gərçəkləşdirilir.

Vahid sahibkarlıq fəaliyyəti əsasında aqrobiznesin təşkili Qərb ölkələrində fermer təsərrüfatlarının təşkilinin ən mühüm və geniş yayılmış formalarından biri hesab edilir. Bu prinsip əsasında təşkil edilən aqrobiznes sturukturlarının sayı Amerika Birləşmiş Ştatlarında təxminən 1,7 milyona çatır ki, bu da ümumi fermer təsərrüfatlarının təxminən 86%-ni özündə əks etdirir. Vahid sahibkarlıq fəaliyyəti əsasında təşkil edilən aqrobiznes qurumlarının nəzdindəki orta torpaq sahəsinin həcmi təxminən 150 hektara bərabərdir ki, bu zaman bir fermerə orta illik pul gəlirinin həcmi təxminən 60000$-dan yüksək olur [4. s. 5].

Ümumiyyətlə müasir şəraitdə aqrobiznes fəaliyyəti kənd təsərrüfatının kommersiyalaşdırılmasının ən mühüm elementlərindən biri hesab edilir. Belə ki, kənd təsərrüfatında fəaliyyət göstərən fermer təsərrüfatları artıq istər daxili bazarda, istərsə də xarici bazarda effektiv fəaliyyət göstərən bir qurum kimi təqdim edilə bilir.

Aqrobiznes fəaliyyətinin təşkilinin ən mühüm prinsiplərindən biri də marketinqin təşkili hesab olunur. İstər daxili və istərsə də xarici marketinq tədbirlərinin həyata keçirilməsi, yəni daxili və

beynəlxalq marketinqin uğurlu təşkili zamanı kənd təsərrüfatı əmtəə istehsalçısı daxili və xarici bazarda baş verən bazar konyunkturunu mənimsəyə bilir və bununla da daxili və xarici bazarda baş verən konyunktiv dalğalanmalara effektiv reaksiya göstərmək imkanlarına malik olur. Təbii ki, bu zaman ən mühüm istiqamətlərdən biri kənd təsərrüfatı məhsullarının saxlanması və onun çatdırılması ilə bağlı problemlərin effektiv həllilə bağlıdır.

Kənd təsərrüfatı məhsullarının istehsalının özünəməxsus xüsusiyyətlərindən biri də kənd təsərrüfatı məhsullarının uzunmüddətli daşınma prosesinə adekvat reaksiya göstərməməsilə bağlıdır. Yəni kənd təsərrüfatı məhsullarının tez xarab olması bütövlükdə onun daşınma imkanlarında problemlərin yaranmasına gətirib çıxarır. Bu baxımdan dövlətin köməyilə inkişaf etmiş ölkələrdə kənd təsərrüfatı məhsullarının uzunmüddətli saxlanılması imkanları təmin edilir və bu da kənd təsərrüfatı əmtəə istehsalçılarının mövsümdən sonrakı proseslərdə məhsul satışından daha çox mənfəət əldə etmək imkanlarını təmin edir.

## ƏDƏBİYYAT

1. Eldar Quliyev. Ərzaq təhlükəsizliyinin gücləndirilməsi problemləri və strateji istiqamətləri. Bakı, 2020. 464 c.
2. Anar Abbasov. Ərzaq təhlükəsizliyi, Bakı, 2007, 602 s.
3. Н.И.Базлева, С.П.Гурков. Экономическая теория, учебник, 2001, 118 –141 с
4. В.Всаков. Организация фермерской бизнеса в США оргоэкономика, 2000, № 3.
5. Fazil Abbasov. Ərzaq təhlükəsizliyinin təmin olunmasının əsas kriteriyaları və şərtləri. “Kooperasiya” Elmi-Praktik jurnal 2020, №1(56), s.19-24.

***Фазилъ Гашим оглу Аббасов***
***к.е.н, проф.,***

***Гюнай Ибадова***
***Азербайджанского Университета Кооперации***

## Роль международного агробизнеса в обеспечении глобальной продовольственной безопасности

***Резюме***

Обеспечение глобальной продовольственной безопасности зависит от увеличения сельскохозяйственного производства в мире, а также от обеспечения доступа к продовольственному рынку, а также от повышения покупательной способности населения. Обеспечение глобальной продовольственной безопасности также зависит от деятельности агробизнеса, в статье рассматривается исследование этих проблем.

**Цель исследования** - оценить влияние роли международного агробизнеса на обеспечение продовольственной безопасности государства.

Методология исследования - в работе использованы сравнительный анализ, логическое обобщение, системный подход, методы анализа и синтеза.

**Значение исследования** - Поскольку международная агропромышленная деятельность охватывает все стадии от производства до потребления, были предприняты усилия для определения воздействия этой системы на продовольственную безопасность с учетом международного опыта.

**Результаты исследования** позволяют сделать вывод о том, что международная агропромышленная деятельность оказывает значительное влияние на продовольственную безопасность.

**Оригинальность и научная новизна исследования** - в статье рассматриваются принципы агробизнеса, международный опыт, продовольственная безопасность. Научная новизна статьи - определение приоритетов развития агробизнеса.

***Ключевые слова: мировая продовольственная безопасность, международный агробизнес, удовлетворение спроса на продукты питания, маркетинг, система международных экономических отношений.***

***Fazil Hashim Abbasov***
***candidate of economic sciences, professor,***

***Gunay Ibadova***
***Azerbaijan Cooperation University***

## The role of international agribusiness in ensuring global food security

***Summary***

Ensuring global food security depends on increasing agricultural production in the world, as well as providing access to the food market, as well as increasing the purchasing power of the population. Ensuring global food security also depends on the activities of agribusiness. The article discusses the study of these problems.

**The purpose of the study** is to assess the impact of the role of international agribusiness on ensuring food security of the state.

**Research methodology** - comparative analysis, logical generalization, systematic approach, analysis and synthesis methods were used in the research work.

**Significance of the study** - Since international agribusiness activities cover all stages from production to consumption, efforts have been made to determine the impact of this system on food security, taking into account international experience.

**The results of the study** lead to the conclusion that international agribusiness activities have a significant impact on food security.

**Originality and scientific novelty of the research** - the article examines the principles of agribusiness, international experience, food security. The scientific novelty of the article is the definition of agribusiness development priorities.

***Key words: world food security, international agribusiness, meeting the demand for food products, marketing, the system of international economic relations.***